

# Azərbaycan türk birliyinə mühüm töhfələr verir

## Prezident İlham Əliyevin Qırğızıstana səfəri strateji tərəfdaşlığın daha da güclənməsi üçün müsbət impuls yaratdı

**Müstəqilliyinin bərpasının 31 illiyini qeyd edən Azərbaycan qısa müddətdə həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş dövlətə çevrilib. Bunun yeganə səbəbi isə, əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir.**

Azərbaycana rəhbərlik etdiyi 19 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, ölkəmiz mövcudluğu tarixində heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından iqtisadi sahədə ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir.

Məhz bu siyasətin fonunda Azərbaycanın dost və strateji tərəfdaşlarının sayı gündən-günə artır. Xüsusilə də türk və islam dünyası, türkdilli dövlətlərlə əlaqələr özünün ən yüksək mərhələsini yaşayır.

Prezidentin Qırğız Respublikasına və Qazaxıstana səfərləri, keçirdiyi görüşlər, imzaladığı sənədlər də bu prosesə müsbət impuls verdi.

### Münasibətlər yeni inkişaf mərhələsindədir

Azərbaycan qonşu olan və olmayan digər dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı əlaqələrin genişləndirilməsinə daim böyük önəm verib.

Prezident İlham Əliyev xüsusən də türk dövlətləri arasında sosial-iqtisadi, mədəni sahədə əməkdaşlığın, münasibətlərin inkişafı və bundan əldə ediləcək faydalarla bağlı strateji baxışlarını ortaya qoyub. Türkdilli dövlətlərin birlik və həmrəyliyinin möhkəmləndirilməsini dəyərləndirərkən Prezident qeyd etmişdir ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Əgər türk dövlətləri birlikdə olsalar, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsələr və bu birlik mütəmadi işlərlə möhkəmləndirilsə, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaq.

Hazırda Azərbaycanın Türk Dövlətləri Təşkilatının üzvləri ilə strateji tərəfdaşlığı daha da möhkəmlənməkdədir. Oktyabrın 11-də Prezident İlham Əliyevin Qırğızıstana səfəri çərçivəsində iki ölkə arasındakı əlaqələrə yeni impuls verən mühüm hadisələr yaşandı.

Öncə onu deyək ki, 6 ay öncə aprel ayının 20-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycana səfər etmişdi. Bu səfər çərçivəsində iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandum imzalanmışdı. Bundan başqa, iki ölkə arasında əlaqələrin inkişafına töhfə verəcək daha 8 sənədə imza atılmışdı.

Tarixə nəzər yetirsək görərik ki, Azərbaycanla Qırğız Respublikasının münasibətlərinin qədim kökləri var. Azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə, tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa, xalqlarımızı dil və din eyniliyi də birləşdirir.

İnkaredilməz reallıqdır ki, son onillikdə Qırğız Respublikasının tarixində siyasi təlatümlər, tez-tez hakimiyyət dəyişikliyi, uzunmüddətli daxili gərginliklər baş verib. Azərbaycan isə müstəqil hüquqi dövlətdir və baş verən hansısa prosesin hüququn aliliyi prinsipi əsasında ədalətli həllini dəstəkləyib.

Ümumiyyətlə isə, iki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə qurulub, səfirlik və konsulluq səviyyəsində rəsmi münasibətlər yaradılıb. Belə ki, 1996-cı ilin ortalarında Azərbaycanın Qırğız Respublikasında, 1998-ci ilin may ayında Qırğız Respublikasının ölkəmizdə səfirlikləri fəaliyyətə başlayıb. 2002-ci ildə Qırğız Respublikasının Azərbaycanda fəxri konsulluğu yaradılıb. 2005-ci ildə Azərbaycan Milli Məclisinin qərarı ilə Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu formalaşıb. 2007-ci ildə Azərbaycanın Qırğız Respublikasının paytaxtı Bişkekdə səfirliyi təsis edilib. 2014-cü ildə isə dost ölkənin Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. Ölkələr arasında indiyədək 51-dən çox sənəd imzalanıb.

### Strateji tərəfdaşlıq bəyannaməsi əlaqələri yüksək səviyyəyə qaldırıb

Etiraf etməliyik ki, 1997-ci ildə Azərbaycanla Qırğız Respublikası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması, ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlərin imzalanması, tərəflərin iqtisadi sahədə münasibətləri genişləndirmək niyyətlərinə baxmayaraq, iqtisadi münasibətlər elə də yüksək səviyyədə deyildi. Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana səfəri çərçivəsində də imzalanan sənədlər isə əlaqələrin inkişafına təkan verdi.

Prezident İlham Əliyevin bu ölkəyə səfəri strateji tərəfdaşlığın daha da gücləndirilməsinə mühüm töhfə verdi.

Oktyabrın 11-də Bişkekdə Birinci Dövlətlərarası Şuranın məhdud və geniş tərkibdə ilk iclası keçirilib. Bu şura Sadır Japarovun Azərbaycana səfəri zamanı imzalanan "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum" əsasında yaradılıb.

Birinci Dövlətlərarası Şuranın iclasında çıxış edən Sadır Japarov bildirib ki, hər iki ölkə əsl strateji tərəfdaşlıq münasibətləri nümayiş etdirir. Üç aydan sonra diplomatik münasibətlərin qurulmasının 30 illiyi olacaq: "Bizim əməkdaşlığımız strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Fərəhli haldır ki, dinamik şəkildə möhkəmlənən və genişlənən əlaqələr ölkələrimizin parlamentləri, hökumətləri və aidiyyəti qurumları arasında aktiv qarşılıqlı fəaliyyətlə nəticələnib. Aprel ayındakı bir sıra razılaşmalarımız hökumətlərarası birgə komissiyanın xətti ilə əməli surətdə həyata keçirilib, işgüzar şura yaradılıb".

İlham Əliyev isə qeyd edib ki, aprel ayında Bakıda imzalanan Strateji Tərəfdaşlıq haqqında Bəyannamə əlaqələri daha yüksək səviyyəyə qaldırıb. Bu səfərin yekunlarına dair əldə olunacaq razılaşmalar isə bir çox sahədə əməkdaşlığın dərinləşməsinə kömək edəcək.

Azərbaycan Prezidenti onu da vurğulayıb ki, dost ölkələr arasındakı əmtəə dövriyyəsi hələ ki, qaneedici deyil: "Mən əmtəə dövriyyəsinin rəqəmlərinə baxdım. Əlbəttə, onlar bizi məmnun edə bilməz. Lakin fikrimcə, bu, bizim nəzərdə tutduğumuz o planlardır ki, qısa zaman kəsiyində qarşılıqlı ticarətin həcmini artırmağa imkan verəcək. Azərbaycan həmçinin Sizin ölkədə investisiya layihələrində maraqlıdır".

### Zirvə görüşü həmrəyliyin möhkəmlənməsi işində daha bir addım olacaq

Şuranın geniş tərkibli görüşündə tərəflər arasında mövcud olan potensialın inkişafından, əlaqələrin daha da dərinləşməsindən, qarşılıqlı mədəniyyət günlərinin keçirilməsindən söhbət açıldı və bütün bunların strateji tərəfdaşlığa böyük töhfə verəcəyi bildirildi.

İlham Əliyev vurğuladı ki, bu gün türk dünyası yeni potensial əldə edir, həm Azərbaycan, həm də Qırğız Respublikası türkdilli dövlətlər arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə fəal töhfə verir. Gələn ay keçiriləcək Zirvə görüşü bu həmrəyliyin möhkəmlənməsi işində daha bir addım olacaq: "Biz daim müstəqillik və milli ləyaqət yolu ilə getməkdən ötrü öz köklərimizə yaxın olmalı, öz ənənələrimizə, əcdadlarımızın vəsiyyətlərinə söykənməli və xalqlarımızın nadir mədəniyyətini qoruyub saxlamalıyıq".

Prezident artıq yarım ildir Azərbaycan və Qırğızıstanın rəsmi şəkildə strateji tərəfdaş olduğunu söyləyərək dedi ki, imzalanan bəyannamə uğurla həyata keçirilir və yeni müqavilələr, danışıqlar sənədi daha konkret məzmunla zənginləşdirəcək.

Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclası başa çatdıqdan sonra prezidentlərin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Öncə dövlət başçıları "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Birinci Dövlətlərarası Şuranın iclasının Qərarı"nı imzalayıblar. Sonra isə tərəflər arasında müxtəlif sahələri əhatə edən daha 8 sənəd imzalanıb. Bununla da son 6 ayda strateji tərəfdaşlar arasında imzalanan sənədlərin sayı 16-ya çatıb.

Mətbuata bəyanatla çıxışı zamanı Prezident Sadır Japarov qeyd edib ki, diplomatik münasibətlərimizin qurulmasının 30 illiyi ərəfəsində növbəti mərhələ kimi birgə İnkişaf Fondunun fəaliyyətinin sürətləndirilməsi, əməkdaşlığın inkişafı üçün beşillik kompleks proqramın imzalanması və 2023-cü ildə Azərbaycanda Qırğızıstanın Mədəniyyət Günlərinin, 2024-cü ildə isə Qırğızıstanda Azərbaycanın Mədəniyyət Günlərinin keçirilməsi barədə razılığa gəlinib: "Əminəm ki, ikitərəfli münasibətlərimizin gələcək inkişafı çox müsbət olacaqdır. Biz Azərbaycan investorlarının Qırğızıstana gəlişinə şad olarıq və iqtisadi sahələrdə əməkdaşlığa hazırıq".

Prezident həmçinin nəqliyyat-logistika, informasiya-kommunikasiya texnologiyaları, təhsil, turizm və idman sahələrində hələ çox işlərin görülməli olduğunu söyləyərək bildirib ki, dövlət başçıları münasibətlərin strateji xarakterini bir daha təsdiqləyiblər.

İlham Əliyev isə vurğulayıb ki, yarım il bundan əvvəl müəyyən edilənlərin çoxu artıq real siyasət sahəsinə transformasiya olunur: "Nəqliyyat-tranzit sahəsində Çin-Qırğızıstan-Özbəkistan-Xəzər yeni dəmir yolunun tikintisinə və istismarına başlamaqla əmtəə dövriyyəsinin artması və yüklərin daşınmasının ucuzlaşması üçün imkanlar yaranacaq. Biz qardaş Qırğızıstan xalqını, eləcə də digər tərəfdaş ölkələri bu mühüm layihənin icrasına başlanması münasibətilə təbrik edirik".

Onu da qeyd edək ki, oktyabrın 11-də Bişkekdə həmçinin Qırğızıstan-Azərbaycan Dostluq Parkının, oktyabrın 12-də isə Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziya təhsil-tərbiyə kompleksinin, Nizami Gəncəvi adına 103 saylı məktəbin açılışları olub.

Prezidentlərin iştirakı ilə keçirilən bu mərasimlər bir daha dost ölkənin Azərbaycana olan münasibətinin real təzahürüdür. Bunu çox yüksək dəyərləndirən İlham Əliyev Ulu Öndər Heydər Əliyevin xatirəsinə bu cür ehtirama görə Qırğızıstan Prezidentinə, qardaş Qırğız xalqına bir daha təşəkkür edib.

Göründüyü kimi, Azərbaycanın Qırğız Respublikası ilə münasibətlərində yeni yüksəliş mərhələsi başlayıb. Strateji tərəfdaş olan hər iki ölkənin dövlət başçılarının son 6 ayda 2 dəfə görüşməsi və yeni sənədlərin imzalanması bir daha təsdiq edir ki, yaxın zamanlarda müxtəlif istiqamətlər üzrə iqtisadi-ticari əlqələr yüksələn xətlə inkişaf edəcək, əmtəə dövriyyəsi artacaq. Diplomatik münasibətlərin yaranmasının 30-cu ilində, yeni 2023-cü ildə hər iki ölkədə müxtəlif tədbirlərin, konfransların keçirilməsi münasibətləri daha da möhkəmləndirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*